# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA FAUNA MÜXTƏLİFLİYİNİN TƏDQİQİNİN YENİ MƏRHƏLƏSİ

**Akif Bayramov**

*AR ETN Bioresurslar İnstitutu, Naxçıvan*
*akifbayramov50@mail.ru*

Respublika Prezidenti Heydər Əliyevin 04 yanvar 2001-ci il tarixli Fərmanı ilə 1945-ci ildən fəaliyyət göstərən və dünya elminə sıx inteqrasiya edən Azərbaycan Elmlər Akademiyası «Milli Elmlər Akademiyası» statusunu qazandı. 80 ilə yaxın müddətdə dövlətin elm siyasətini layiqincə həyata keçirən Elmlər Akademiyasının fəaliyyətində muxtar respublika faunasının müxtəlif sahələri üzrə problemlərin araşdırılması və həlli məsələləri həmişə diqqət mərkəzində olmuşdur.

Keçən əsrin 90-cı illərindən başlayaraq Dövlət Başçısının tükənməz siyasi iradəsi və dövlətçilik bacarığı nəticəsində Azərbaycanda yaranan yeni iqtisadi-siyasi vəziyyət və sabitlik elmin dirçəlişinə güclü təkan verdi. XX əsrin sonunda Ümummilli Lider H.Əliyev haqlı olaraq muxtar respublikanın bioloji sərvətlərinin və mineral xammal ehtiyatının öyrənilmə səviyyəsini qənaətbəxş hesab etmirdi. Bu boşluğu doldurmaq və mövcud elmi potensialdan səmərəli istifadə etmək məqsədilə onun 07 avqust 2002-ci il tarixli xüsusi Sərəncamı ilə Azərbaycan MEA-nın Naxçıvan Bölməsi yaradıldı. Yeni elm təşkilatının tərkibində hərtərəfli dövlət qayğısı ilə əhatə olunan, zəngin maddi-texniki baza ilə təmin edilən Bioresurslar İnstitutu da fəaliyyətə başladı. Çoxprofilli institutda labüd olaraq bölgə fauna müxtəlifliyinə daxil olan heyvanlar aləminin tədqiqi, onun genefondunun qorunması və səmərəli istifadə imkanlarının araşdırılması məqsədilə Zooloji tədqiqatlar şöbəsi də təşkil edildi.

Ötən illər ərzində institutda formalaşmış yaradıcı mühit sayəsində şöbə əməkdaşlarından 3 nəfər biologiya elmləri doktoru, 4 nəfər isə biologiya üzrə fəlsəfə doktoru dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmişdir. Xalq təsərrüfatı əhəmiyyətli məsələləri əhatə edən dissertasiya işləri həm də yüksək elm tutumu ilə fərqlənmişlər. Tədqiqat işlərinin nəticələrinə əsasən hazırlanmış elmi-praktiki, ekoloji və iqtisadi əhəmiyyət daşıyan əməli təkliflər, tövsiyələrvə metodik göstərişlər müvafiq hökumət orqanlarına təqdim edilmiş və həmişə müsbət rəylər alınmışdır.

Əməkdaşların müəllifliyi ilə xeyli sayda monoqrafiyalar, kitablar və metodik vəsaitlər nəşr olunmuşdur: "Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı" (Onurğalılar)", "Azərbaycanın Mühüm Ornitoloji Əraziləri" 2 cilddə, "Azərbaycan Respublikasının "Qırmızı Kitabı" (Nadir və nəsli kəsilməkdə olan fauna növləri)" II nəşr, "Asiya muflonu və Bezoar keçisinin Azərbaycanda qorunma strategiyası", "Kənd təsərrüfatı heyvanlarında helmintozların profilaktikası", "Naxçıvan Muxtar Respublikasının onurğasızlar faunasının taksonomik spektri", "Latın dili (qrammatika və terminologiyanın əsasları)", "Mühüm Ornitoloji Ərazilər. Naxçıvan", "Naxçıvan Muxtar Respublikasının zəhərli ilanları", "Çay sularında üzvi çirklənmənin bioloji analizinin sadə üsulları", "Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarının zərərverici həşəratları və onların entomofaqları", "Naxçıvan Muxtar Respublikasının arıkimilər (*Hymenoptera, Apoidea*) faunası", "Kənd təsərrüfatı heyvanları və ev quşlarının sarkosporidiozlarında profilaktikanın tətbiqi", "Naxçıvan Muxtar Respublikasının herpetofaunası", "Naxçıvan Muxtar Respublikasının onurğalı heyvanlarının taksonomik spektri", "Araz su anbarının hidrofaunası", "Naxçıvan Muxtar Respublikasının faunası: Balıqlar və suda-quruda yaşayanlar", "Azərbaycan faunasının onurğalı növlərinin informasiya sistemi" və s.

Əldə edilmiş əsas nəticələr haqqında qısa məlumatları konfrans iştirakçılarının nəzərinə çatdırmaq istərdik: Naxçıvan MR şəraitində ilk dəfə olaraq kənd təsərrüfatı heyvanlarında və ev quşlarında parazitlik edən törədicilərin – təkhüceyrəli orqanizmlər olan *Eimeria* və *Sarcosistys* növlərinin tədqiqinə üstünlük verilmişdir. Törədicilərin növ tərkibi, yüksək virulentli növləri, onların müxtəlif ekoloji mühitlərdə sporulyasiya qabiliyyəti, sahib mənsubiyyəti və başqa bioloji-ekoloji xüsusiyyətləri araşdırılmışdır. İlk dəfə olaraq iri və xırdabuynuzlu heyvanların, ev quşlarının özünəməxsus parazit faunası, xəstəliklərinin kliniki gedişi, onların məhsuldarlığa təsiri və s. müəyyən edilmişdir. 2015-ci ildə İ.B.Məmmədovun "Naxçıvan Muxtar Respublikası şəraitində kənd təsərrüfatı heyvanlarının və quşlarının koksidiozları, onların orqanizmində fizioloji göstəricilərə təsiri" mövzusunda elmlər doktoru alimlik dərəcəsi almaq üçün müdafiə etdiyi dissertasiya işi mütəxəssislər tərəfindən elmi və iqtisadi əhəmiyyətinə görə yüksək qiymətləndirilmişdir. Protozooz xəstəliklərin tədqiqi hazırda davam etdirilir.

Muxtar respublikada gövşəyən heyvanlar arasında geniş yayılmış, ağır gedişli anoplosefalyatozların törədiciləri (6 növ) ərazinin düzənlik, orta dağlıq, dağlıq və yüksək dağlıq otlaqları şəraitində ilk dəfə olaraq ətraflı tədqiq edilmişdir. İlk dəfə keçilərdə Naxçıvan MR-in parazit faunası üçün yeni olan bir növ (*Stilesiaglobipunctata* Rivolta, 1874) anoplosefalyat qurdu aşkar olunmuşdur. Helmintoloq Məmmədov E.N. 2013-cü ildə biologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün elmi və praktiki əhəmiyyəti ilə seçilən "Naxçıvan Muxtar Respublikasında gövşəyən heyvanların anoplosefalyatozları və onların törədicilərinin, aralıq sahiblərinin bioekoloji xüsusiyyətləri" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.

Xeyli zərərverici və faydalı həşərat növləri Azərbaycan və muxtar respublika faunası üçün ilk dəfə göstərilmişdir. Gələcəkdə təsərrüfat əhəmiyyətli entomofaqlardan (13 növ) bioloji mübarizə tədbirlərində istifadə edilməsi tövsiyə olunmuşdur. Araşdırıcı A.Q.Qasımov 2009-cu ildə biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarına zərər verən cücülər və onların entomofaqları" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. Təbiətdə və kənd təsərrüfatında çiçəkli bitkilərin çarpaz tozlanmasında, onların məhsuldarlığının yüksəlməsində müstəsna fəaliyyəti ilə fərqlənən arıkimilər faunası öyrənilmişdir. 230 arı növü Naxçıvan MR və Azərbaycan faunası üçün ilk dəfə qeydiyyatdan keçmişdir. *Apoidea* fəsiləüstünə mənsub olan bütün növlərin ekoloji-faunistik xüsusiyyətləri, zoocoğrafi mənşəyi, 4 yüksəklik qurşağı üzrə yayılması, qida əlaqələri, yuvalama yerləri və uçuş fenologiyası haqqında dəyərli nəticələr alınmışdır. M.M.Məhərrəmov 2009-cu ildə "Naxçıvan Muxtar Respublikasının (*Hymenoptera, Apoidea*) arıkimiləri" mövzusunda biologiya üzrə fəlsəfə doktoru dissertasiyasını müdafiə etmişdir. *Hoplisoides flavescens* arı növü dünya elmi üçün yeni takson olmuşdur.

Ev quşlarında parazitlik edən helmintlərin morfoloji və bioloji xüsusiyyətləri araşdırılır. Gənc mütəxəssis Baxşəliyeva S.Y. tərəfindən antihelmint təsirli dərman bitkilərinin – *Equisetum arvense* – çöl qatırquyruğu, *Medicago sativa* – yonca, *Urcita* – gicitkən növləri, *Plantago mayor* – bağayarpağı və *Melilotus officinalis* – dərman növlərinin və digərlərinin ehtiyatı öyrənilir. Müəyyən edilmişdir ki, inzibati rayonların orta dağlıq qurşaqlarında antihelmint təsirli dərman bitkilərinin ehtiyatı daha boldur. Eymeriozla yoluxmuş cücə və toyuqların müalicəsi məqsədilə antihelmint təsirli bitkilərdən – kəklikotu, boymadərən və xəşəmbülün quru və narınlaşdırılmış nümunələrinin ayrı-ayrı və qarışıq tətbiqinə təşəbbüslər edilir.

Gənc mütəxəssis Məmmədova G.N. tərəfindən İkiqanadlı (*Diptera*) növlərinin aşkar edildiyi məntəqələr, uçuş fəallığı, sahib mənsubiyyəti və biotopları tədqiq edilir. Göyün *(Tabanidae)* növlərinin əsas taksonlarına görə təyini işinə üstünlük verilmişdir. Naxçıvan MR faunası üçün 5 yeni *Tabanus* növü: *Haematopa ocelligera, Haematopota italica, Haematopota scutellata, Haematopota crassicornis, Tabanus spodepterus* müəyyən edilmişdir. Növlər Türkiyənin Eskişehir Teknik Universitetinin entomologiya üzrə elmlər doktoru, professor Ferhat Altunsoyla birgə əməkdaşlıq nəticəsində təyin edilmişdir.

Naxçıvan MR-də quşlar faunasının qorunması üçün beynəlxalq əhəmiyyət kəsb edən 7 Mühüm Ornitoloji Ərazi (MOƏ) aşkar edilmiş və onların müasir tələblərə uyğun müfəssəl xarakteristikası verilmişdir. Ölkə avifaunasına xeyli yeni sistematik taksonlar əlavə olunmuşdur. A.F.Məmmədov 2008-ci ildə "Naxçıvan Muxtar Respublikasının Mühüm Ornitoloji Ərazilərinin indikator növləri" mövzusunda fəlsəfə doktoru dissertasiyanı uğurla müdafiə etmişdir. Hazırda tədqiqatçı tərəfindən bölgə faunasının xüsusi qorunma statusuna malik olan azsaylı quru onurğalı heyvan növləri, onların sayı, biotop mənsubiyyəti, bioloji və ekoloji xüsusiyyətləri, qorunmasının əsas kateqoriyaları (CR, EN, VU, NT, DD), mühafizəsinin əsas istiqamətləri müəyyən edilir. Müəllif 2021-ci ildə "Naxçıvan Muxtar Respublikasında azsaylı quru onurğalı heyvanların faunası və ekologiyası" mövzusunda biologiya elmləri doktoru dissertasiyasını uğurla müdafiə etmişdir.

Aqrar elmlər üzrə fəlsəfə doktoru Ə.V.İbrahimov Naxçıvan MR təsərrüfatlarında bəslənilən Balbas cinsli qoyunların bioloji-təsərrüfat xüsusiyyətlərini araşdırır. Muxtar respublikanın müxtəlif ekoloji zonalarında Balbas cinsli ana qoyunların və müxtəlif yaş qrupuna məxsus quzuların bəslənmə şəraitindən, yemin növündən və yem payından asılı olaraq süd, yun məhsuldarlığı, diri çəki artımı, yunun fiziki və texnoloji tərkibi öyrənilir. Törədici fərdlərin eksteryer və interyer quruluşu və fizioloji mərhələləri tədqiq edilir. Müəllifin elmi və iqtisadı əhəmiyyəti ilə seçilən və dissertasiya işinin nəticələrini özündə əks etdirən "Naxçıvan Muxtar Respublikası şəraitində Balbas cinsli qoyunların məhsuldarlığına selenin təsiri" adlı monoqrafiyası çapdan çıxmışdır.

Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) qrant layihəsi üzrə aparılan uzunmüddətli axtarışlarla Zəngəzur dağ silsiləsinin cənub-qərb yamaclarında bəbir (*Panthera pardustulliana* Valenciennes), cüyür (*Capreolus capreolus* Linnaeus) ailələrinin və digər nadir məməli heyvan növlərinin normal yaşam şəraitinin bərpa olunduğu yüksək keyfiyyətli fototələlər və video çəkilişlərlə sübut edilmişdir. Həmin qrant layihəsinin yerinə yetirilməsi nəticəsində yeni elmi nəticələr əldə olunmuşdur. Şöbə əməkdaşları "Azərbaycanın "Qırmızı kitabı"nın (Fauna) III nəşrinin tərtibində fəal iştirak etmişlər.